Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.81-82

# TƏHSİL SƏFƏRİNDƏN UĞURLU ƏMƏKDAŞLIĞA DOĞRU



**Qalib Nəbiyev,**
*Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru*
*e-mail:q-nabiyev@yahoo.com*

*Türkiyənin Milli təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyəti bu il may ayının 27-də Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə səfər zamanı müəssisənin fəaliyyəti ilə yaxından tanış olublar. Görüş zamanı Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Milli Təhsil Nazirliyinin nümayəndə heyəti 2021-ci il 19 fevral tarixində imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" çərçivəsində iki ölkə arasında bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm məsələləri ətraflı müzakirə ediblər. Tərəflər müvafiq Protokol əsasında peşə təhsili üzrə əməkdaşlığın genişləndirilməsi məsələsinin vacibliyini vurğulayaraq yaxın zamanda Azərbaycanda Türkiyə Respublikasının təcrübəsinə əsaslanan iki yeni peşə təhsili müəssisəsinin yaradılmasını zəruri hesab ediblər. Bu müəssisələrdən birinin Bakıda mebel sənayesi və informasiya texnologiyaları üzrə, ikinci müəssisənin isə Qəbələ şəhərində turizm və xidmət sahəsi üzrə yaradılması nəzərdə tutulur və müvafiq işlərə artıq start verilib.*

Bu ilin oktyabr ayının 3-17 tarixlərində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" çərçivəsində qardaş ölkəyə səfərin əsas məqsədi də peşə təhsili müəssisələrinin idarə edilməsində Türkiyədə tətbiq edilən qabaqcıl təcrübənin öyrənilməsi, paytaxt və regionları təmsil edən peşə təhsili müəssisələrinin rəhbər şəxsləri üçün müxtəlif istiqamətlər üzrə təlimlər, sahəvi peşə təhsili müəssisələrində fəaliyyətin təşkili ilə bağlı yerində təcrübə ilə tanış olmaq idi.

Mərkəzimizin təhsilalanlarla iş şöbəsinin müdiri Anar Məhərrəmovla birlikdə iştirak etdiyimiz səfərdə proqramda nəzərdə tutulan işləri uğurla başa vurmaqla yanaşı, səfər çərçivəsində İstanbul şəhərində 15 peşə təhsili müəssisəsinə və bir neçə universitetə səfərlər edib, fəaliyyətləri ilə yaxından tanış olaraq görüşlər və təlimlər keçirmişik. Bundan əlavə, səfərdə Türkiyənin təhsil sistemi ilk təhsildən orta təhsilə keçid, peşə və texniki təhsil, proqram növləri, ixtisas seçimi,



sahə dəyişikliyi, istehsalat dərsləri, əməyin mühafizəsi və s. haqqında ətraflı məlumatlar verilib. İKT, elektrik, qrafik və fotoqrafiya, mebel və daxili məkan sahələri üzrə istehsalat təlimi otaqları, emalatxanalarla tanışlığımız və əldə edilən təcrübənin mərkəzimizin fəaliyyətinin uğurlu təşkilinə töhfə verəcəyini düşünürük. Səfərin bu istiqamətdə təşkilinin Qəbələ Dövlət Peşə Təhsil

Mərkəzi üçün böyük rolu olub. Belə ki, səfər çərçivəsində təcrübə hotellərində olmaq, onların fəaliyyəti, iş prosesi ilə ətraflı tanışlıq, tələbələrin təcrübə hotelində fəaliyyəti, qonaqların məmnuniyyətinin diqqətdə saxlanılması və s. ilə tanışlığın ölkəmizdə təcrübə hotelinin təşkili və uğurlu fəaliyyətinin həyata keçirilməsində böyük əhəmiyyəti olacaqdır. Həmçinin səfər zamanı bir çox peşə təhsili müəssisələri ilə əlaqələrin genişləndirilməsi, qarşılıqlı səfərlərin təşkili, Türkiyə təcrübəsinin öyrənilməsi geniş müzakirə edilib. Qeyd edək ki, hazırda bu səfər zamanı tanış olduğumuz **Bursa Meslek Okulu** ilə əməkdaşlıq daha da genişləndirilir və yaxın günlərdə isə adı çəkilən peşə təhsili müəssisəsinin rəhbər heyətinin Mərkəzimizə səfəri gözlənilir.




İşəgötürən müəssisələrlə əməkdaşlıq baxımından da səfərin əhəmiyyəti böyükdür. Belə ki, Mərkəzimiz işəgötürən müəssisələrlə sıx əməkdaşlıq edir, yalnız tələbələrin təcrübəsi zamanı deyil, ümumiyyətlə, tədris prosesində biznes müəssisələrinin nümayəndələrinin yaxından iştirakı təmin edilir. Bu istiqamətdə qardaş Türkiyənin təcrübəsinin öyrənilməsi və tətbiqi yeniliklərə zəmin yaradır. Mərkəz tərəfindən bir çox ölkələrin peşə təhsili müəssisələrinin təcrübəsinə, xüsusən də qardaş Türkiyənin təcrübəsinə önəm verilir. İştirakçısı olduğumuz təlim səfərindən sonra qarşılıqlı əməkdaşlıq daha da genişlənib ki, bu da Türkiyə modelinin tətbiqi nəticəsində peşə təhsilinin inkişafında əhəmiyyətli irəliləyişə təkan verir.

Eyni zamanda onu da xatırladaq ki, bu ilin əvvəlindən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ilə Türkiyənin **ANKARA/ÇANKAYA - Çankaya İMKB Mesleki ve Teknik Anadolu Lisesi** ilə əməkdaşlığa start verilmiş və sentyabr ayında bu əməkdaşlıq "Qardaşlaşma sazişi"nin imzalanması ilə gerçəkləşmişdir. İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası çərçivəsində iki ölkə arasında peşə təhsili sahəsində əməkdaşlığı özündə ehtiva edən Protokolun hər iki ölkənin təhsil nazirləri tərəfindən imzalanması barədə məlumat verilərək, qardaş ölkələrimiz arasında inkişaf edən siyasi, iqtisadi, elmi və mədəni əlaqələr, peşə təhsili sahəsində fəaliyyət göstərən müəssisələr arasında qurulan əməkdaşlığın daha da gücləndirilməsi istiqamətinə yönələcəyi bildirilib. Görüşdə aqrar və turizm sahələri, mərkəzin ümumi fəaliyyətini əks etdirən təqdimatlar olub.

ANKARA/ÇANKAYA – Çankaya İMKB Mesleki ve Teknik Anadolu Lisesinin genel müdiri Sedat Arslan ikitərəfli sazişin əhəmiyyəti, qarşılıqlı müəllim-tələbə mübadiləsinin vacibliyi və bu sahədə təcrübələrin ötürülməsi istiqamətində təqdimat edib və liseyin fəaliyyəti, təcrübəsi, tərəfdaşları, həyata keçirilən layihələr haqqında ətraflı məlumat verərək bildirmişdir ki, bundan sonra da Türkiyənin peşə təhsili sahəsində ilk beşliyə düşən ANKARA/ÇANKAYA – Çankaya İMKB Mesleki ve Teknik Anadolu Lisesi və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ilə kadr hazırlığı sahəsində səylərimizi birləşdirəcik. Razılaşmaya görə, bundan sonrakı mərhələdə peşə təhsili sahəsində yüksək ixtisaslı mühəndis-pedaqoji kadr hazırlayan və bunu eyni istiqamətdə həyata keçirən müəssisələr tələbə-müəllim mübadiləsi aparacaq, resurslardan, xüsusilə maddi-texniki bazadan ortaq istifadə edəcək, birgə konfranslar, seminarlar keçirəcəklər.

Hazırda qardaş ölkənin peşə təhsili müəssisələri ilə əməkdaşlığımız davam edir və bu yaxınlarda Bursa şəhərindən bir peşə məktəbinin nümayəndə heyətinin gəlişini də gözləyirik. Ümid edirik ki, bu qardaş ölkə ilə əməkdaşlıq ölkəmizdə peşə təhsilinin inkişafına öz töhfəsini verməklə təhsilalanlarımızın dünyanın qabaqcıl təhsil müəssisələrinin tələblərinə cavab verən kadr kimi yetişməsinə böyük təkan verəcəkdir. Saziş çərçivəsində Mərkəzimizin həm tələbələri, həm də gənc müəllimləri əməkdaşlıq etdiyimiz Türkiyə peşə məktəblərində turizm, ticarət və digər sahələrdə qarşılıqlı təcrübə mübadiləsi imkanı qazanacaq və bu əməkdaşlığın effektivliyini artırmaq üçün hər iki təhsil müəssisəsindən koordinatorlar fəaliyyət göstərəcəkdir.